# Unudulmaz görüşlər



**Mehdi Nağıyev:**

**"Mənim üçün nə vaxtsa Keramika Simpoziumunda iştirak etmək bir xəyal, əfsanə idi. Nəhayət, arzum gerçəkləşdi..."**

**Keramist rəssam, Azərbaycan Rəssamlıq Akademiyasının kafedra müdiri Zahid Hüseynov tərəfindən Tiflis şəhərində keçiriləcək Beynəlxalq Keramika Simpoziumuna namizəd kimi təqdim olundum. Tiflisdə dövlət komissiyası tərəfindən keçirilən müşavirədən sonra namizədliyim qəbul edildi. Beləliklə, Tiflisə ezamiyyətə göndərildim.**

İyulun 1-də artıq Tiflisdə idim. Bütün iştirakçıları səmimiyyət və hörmətlə qarşıladılar. Hər şey mütəşəkkil, ardıcıllıqla, yüksək səviyyədə təşkil olunmuşdu. Vaxtın azlığına baxmayaraq səyahətlərə çıxmağa da imkan tapırdıq, ölkənin tarixi memarlıq abidələri ilə tanış olurduq.

Elə ilk gündən hiss etdim ki, onlar bizim keramist rəssamları çox gözəl tanıyırlar və iki ölkə sənətkarları arasında sıx dostluq əlaqələri var. Elə Simpoziumun məqsəd və məramı da region rəssamlarının bir-birilərini daha yaxşı tanımaq, onlar arasında yaradıcılıq əlaqələrinin yaranması ilə bağlı idi.

Mən orada bir neçə görkəmli keramist rəssamla - türkiyəli Tefik Karagözoğlu, Nedim Çalti, gürcüstanlı Giqişa Paçkoriya, Otar Vepkvadze, Malxaz Şvelidze, Lali Kutateladze, Nato Eristavi, Lia Baqrationi ilə tanış oldum. Tezliklə bu tanışlıq dostluq əlaqələrinə çevrildi.

Orada Gürcüstanın xalq rəssamı, dünyaşöhrətli Alde Kakabadzenin emalatxanasına baş çəkdim. Onun oğlu Qiya Yaşvili ilə də tanış oldum. Qiya Tbilisi Rəssamlıq Akademiyasının keramika şöbəsinin kafedra müdiridir. Çox şadam ki, belə insanlarla ünsiyyət yarada bildim və biz masa arxasında sənətlə bağlı səmimi söhbət etdik.

Simpozium qısa vaxt çərçivəsində keçirilsə də, bacardığımızı etdik, öz iş təcrübəmizi bir-birimizlə bölüşdük. İşlədiyimiz emalatxanada elə gözəl abı-hava var idi ki, bir-birindən səviyyəli keramik əsərlər yaradılırdı. Bunlardan Giqişanın funksiyalı - dekorativ çayniklərini, Tefikin "Nəğməli quşlar", Natonun "Qədim Gürcüstan", Otarın "Diktatorlar", Lalinin "Sirk" və s. bu kimi əsərlərini göstərmək olar.

Mən də orada 5 əsər - "Gürcüstan", "Muğam",

"Xalq mahnısı", "Sevgililər", "Dulusçu" əsərləri ilə təmsil olundum. Etnoqrafiya muzeyinin ərazisində keçirilmiş sərgi uğurlu alındı. Sərgiyə çoxsaylı qonaqlar gəlmişdi. Bu onların bizim sərgiyə olan marağının göstəricisi idi. Oradakı mühit mənə xoş təsir bağışladı. Ona görə ki, sadə insanlar belə özlərini sənətdən ayrı hiss etmir, onunla yaşayırlar.

Tiflisdən ruh yüksəkliyi, böyük təəssüratla qayıtmışam. Azərbaycan bədii keramikası çox qədim zamanlara gedib çıxır. Keçən əsrin 70-80-ci illərində bədii keramikaya yeni yaradıcı gənc rəssamların axını başlanmışdır. Onlar öz ixtisas təhsillərini Moskvanın, Leninqradın, Lvovun və başqa şəhərlərin ali təhsil ocaqlarında almışlar. Dekorativ sənətin əsaslarına yiyələnən keramist rəssamlar öz üzərlərində, yaradıcılıqlarında uğurla işləyir, monumental-dekorativ və sənaye-məişət keramikasının inkişafı üçün əllərindən gələni edirlər.

Lakin keçən əsrin axırlarında baş verən siyasi hadisələr bir çox sahələrdə olduğu kimi, bədii keramikanı da tənəzzülə uğratdı. Ona görə də bütün keramist rəssamları birliyə, sənətin yüksəlişi üçün həmrəy olmağa çağırıram. Hesab edirəm ki, bizim Azərbaycanda da bu cür simpoziumların təşkili çox vacibdir.

● A.QULİYEV





Certificate

The Executive Committee certificate

Mehdi Nagiev

Participated in "The Clay Office" first International Ceramic Symposium

Clay - The Way of Communication

Tbilisi, Georgia 01.07.09 - 14.07.09

**P.S.** **Sonda möhtərəm oxucularımızı həmsöhbətimiz Nağıyev Mehdi Mərdi oğlu ilə yaxından tanış etmək istəyirik: 1961-ci ildə Bakı şəhərində anadan olub. 1976-1980-cı illərdə Ə. Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq məktəbində oxuyub. Lvov Dövlət Dekorativ-tətbiqi sənəti İnstitutunun məzunudur (1980-1985). 1987-ci ildə Səmərqənd, 1990-cı ildə isə Gəncə şəhərinin çini qablar zavodunda yaradıcılıq ezamiyyətində olub. 1997-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür. Əsərləri Azərbaycan Dövlət Rəsm Qalereyasında, Xalça muzeyində, Rəssamlar İttifaqının fondunda, Vaşinqton, Moskva, Pekin şəhərlərində şəxsi kolleksiyalarda saxlanılır.**

